*AMEA Filologiya və sənətşünaslıq, 2026, № 1* *ISSN 2663-4368*
*Səhifə: 96-105* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2026.1.96*

# Hüseyn Nihal Atsız yaradıcılığı və Azərbaycan ədəbiyyatında türkçülük motivləri

**Hicran Əhməd**
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu
E-mail: ahmedova_hicran@mail.ru
ORCID iD: https://orcid.org/0009-0007-6435-494X

***Xülasə.*** XX əsrdə türkçülük ideologiyası Türk dünyasında milli oyanışın və müstəqillik düşüncəsinin mühüm ideoloji dayaqlarından birinə çevrilmişdir. Bu ideologiya həm Türkiyə, həm də Azərbaycan ədəbiyyatında milli kimlik, vətənpərvərlik və dil birliyi mövzularının prioritetliyinə və güclənməsinə mühüm təsir göstərmişdir. Bu baxımdan Türkiyə ədəbiyyatında Hüseyn Nihal Atsız, Azərbaycan ədəbiyyatında isə Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Fikrət Sadıq kimi sənətkarların əsərləri böyük əhəmiyyətə malikdir və bu müəlliflərin yaradıcılığında türk milli şüuru, türk birliyi, azadlıq və milli istiqlal ideyaları geniş şəkildə təbliğ olunmuşdur.
Bu məqalədə Hüseyn Nihal Atsız, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub və Fikrət Sadıq yaradıcılığında türkçülük, milli kimlik, vətənpərvərlik və istiqlal ideyalarının müqayisəli təhlili aparılmış, bu şairlərin müxtəlif şeirlərinə istinad edilmişdir. Araşdırma zamanı bu şeirlərdə türkçülüyün yalnız siyasi ideologiya deyil, həm də dil, tarix, mənəviyyat və mədəni yaddaş konsepsiyası kimi təqdim olunması xalqın milli kimliyinin qorunmasına, tarixi köklərinə bağlılığının möhkəmlənməsinə və gələcək nəsillərdə milli şüurun formalaşdırılmasına xidmət etməsi kimi dəyərləndirilmişdir. Eyni zamanda, bu müəlliflərin şeirlərində ana dilinə münasibət, dilin millətin varlığının qorunmasında rolu, milli özünüdərkin əsas göstəricisi və milli yaddaşın daşıyıcısı olması məsələləri bu məqalədə öz əksini tapmışdır.
Hüseyn Nihal Atsız yaradıcılığında türkçülük etnik və daha sərt ideoloji xətt kimi təmsil olunurdusa, Bəxtiyar Vahabzadə yaradıcılığında azərbaycançılıq və türkçülük sintez olunur. Xəlil Rza Ulutürk Azərbaycanın istiqlalını türk dünyasının ayrılmaz hissəsi hesab edirsə, Sabir Rüstəmxanlı türkçülüyü siyasi şüur və dövlətçilik kontekstində təqdim edir. Zəlimxan Yaqub türkçülüyü əsasən folklor yaddaşı ilə qidalanır, ozan-aşıq ənənəsi milli birliyin simvoluna çevrilir, Fikrət Sadıq yaradıcılığında isə dil sevgisi, torpağa bağlılıq, milli tarixə ehtiram hisslərini humanist və mədəni türkçülük hesab etmək olar.
***Açar sözlər:*** *Türkçülük, milli oyanış, milli kimlik, müstəqillik, ana dili*

**Məqalə tarixçəsi:** göndərilib – 01.05.2026; qəbul edilib – 21.05.2026

# Huseyin Nihal Atsız`s work and the motifs of turkism in Azerbaijani literature

**Hicran Ahmad**

***Abstract.*** In the 20th century, the ideology of Turkism became one of the important ideological pillars of national awakening and independence thinking in the Turkic world. This ideology had a significant impact on the prioritization and strengthening of the themes of national identity, patriotism, linguistic unity in both Turkish and Azerbaijani literature. From this point of view, the works of Huseyin Nihal Atsız in Turkish literature, Bakhtiyar Vahabzade, Khalil Rza Uluturk, Sabir Rustamkhanli, Zelimkhan Yagub, and Fikrat Sadig in Azerbaijani literature are of great importance, the ideas of Turkish national consciousness, Turkish unity, freedom, national independence were widely promoted in the work of these authors.
This article conducts a comparative analysis of the ideas of Turkism, national identity, patriotism and independence in the works of Huseyn Nihal Atsız, Bakhtiyar Vahabzade, Khalil Rza Uluturk, Sabir Rustamkhan-

li, Zelimkhan Yagub and Fikrat Sadig, references are made to various poems of these poets. During the research, it was assessed that the presentation of Turkism in these poems not only as a political ideology, but also as a concept of language, history, spirituality, and cultural memory, served to protect the people's national identity, strengthen their attachment to their historical roots, and form national consciousness in future generations. At the same time, the attitude towards the mother tongue in the poems of these authors, the role of language in preserving the existence of the nation, the main indicator of national self-awareness and the bearer of national memory are reflected in this article.
İn the work of Huseyn Nihal Atsız, Turkism was represented as an ethnic and more rigid ideological line, in the work of Bakhtiyar Vahabzadeh, Azerbaijaniism and Turkism are synthesized. While Khalil Rza Ulutürk considers the independence of Azerbaijan an integral part of the Turkic world, Sabir Rustamkhanli presents Turkism in the context of political consciousness and statehood. Zelimkhan Yagub's Turkism is mainly nourished by folklore memory, the ozan-ashıg tradition becomes a symbol of national unity, in the work of Fikret Sadig, the love of language, attachment to the land and respect for national history can be considered humanistic and cultural Turkism.
***Keywords:*** *Turkism, national awakening, national identity, independence, mother tongue*

**Article history:** received – 01.05.2026; accepted − 21.05.2026

## Giriş / *Introduction*

Türk dili, ədəbiyyatı, mədəniyyəti, ictimai-siyasi tarixi, cögrafiyası  və məişəti haqqında fikir formalaşdıran, türk millətinin nəinki Şərqdə, eyni zamanda dünya çapında özünütanıma və özünütanıtma yolunda ən dəyərli əsər olan Mahmud Kaşqarlının “Divani lüğət-it türk” əsəri bu millətə türk adının Tanrının verdiyi, yer üzünə onların hakim olmaları, ədalət carçısı olduqları, hətta Məhəmməd peyğəmbərin də türk dilinin üstünlük və gözəlliklərinə verdiyi önəmli dəyərlə başlayır [Quliyev: 2014, s.34]. XI əsrdən üzübəri türk təəssübkeşliyi, türkçülük ideyası uzun yol gələrək bütün türk dünyası boyunca müxtəlif zamanlarda ayrı-ayrı mütəfəkkirlərin yaradıcılığında özünü göstərmişdir. Qəhrəmanlıq, fədakarlıq və zəfər türk tarixində əhəmiyyətli yer tutmuşdur.

Bir-birindən xəbərsiz, uzaq məkanlarda türkçülüyü və türk fədakarlığını əks etdirən əsərlər yazılırsa demək bu xalqları birləşdirən bir ortaq tarix vardır. Fransız tarixçisi Fermand Broderin dediyi kimi tarixin ən dərin dibinə, üçüncü qatına enib Tanrı dağlarından, Monqolustan çöllərindən Orta Asiya bozqırlarından, Qafqazlardan gələn səsləri, bu ərazilərdə yaşayanların əsil tarixlərini üzə çıxartmaq lazımdır. “Tarix fərdlərin tək başına təsir göstərə biləcəkləri bir meydan olmaqdan çıxmışdır bu qatda” [Atsız: 2020, s. 3].

Məmməd İsmayıl hələ sovet dövründə Hüseyn Nihal Atsızın Türk millətinin tarixini, mədəniyyətini əks etdirən “Bozqurdların Ölümü”, “Bozqurdlar Dirilir” əsərlərini Azərbaycan türkcəsinə tərcümə etmiş, bu romanların Göytürklərin min üç yüz illik tarixinin eniş, yoxuşlarını, dünyadakı türk nüfüzunun yüksəliş dövrlərini, onların ölümünü, dirilişini, bu yüksəliş və süqutun səbəblərindən bəhs edən bir əsər olduğunu Azərbaycan türklərinə çatdırmışdır.

Hüseyn Nihal Atsızın yaradıcılığında türkçülük **tarixi qəhrəmanlıq, ideal keçmişə dönüş motivləri** ilə təqdim olunur. Türk dövlətlərinin qüdrəti, döyüş ruhu, dövlətçilik ənənələri romantik və epik üslubda təsvir edilir. Bu əsərlər vasitəsilə müəllif oxucuda milli qürur hissini gücləndirməyə çalışır və türklərin tarix boyu böyük sivilizasiya qurucusu olduğunu göstərir. Hüseyn Nihal Atsızın türkçülüyü **fəal mübarizə çağırışı**dır. O, xüsusilə gəncləri milli kimliyə sahib olmağa, türk tarixini öyrənməyə, milli dəyərləri qorumağa və qəhrəmanlığa səsləyir.

Arkadaşlar, haydı artık saflar dizilsin!
Uzak, yakın ufuklardan koşup gelerek
Belde çelik kılıç, içte çelikten ürek
Taşıyanlar saflardakı yerini bilsin!

Kahramanlar yürür geder ölüme karşı,
Bir sevgili gibi onu basar bağrına !

Bak, uzaktan çalınıyor bir zefer marşı,
Yürüyelim şu doğmakta olan yarına.....
[Atsız: 2023, s. 67]

Yaxud "Türk gəncliyinə" adlı şeirində yazır:
Yer bulmasın gönlunde ne ehtiras, ne hesret,
Sen bütün varlığınla yurdumuzun malısan.
Sen bir insan deyilsin, ne kemiksin, ne de et,
Tunctan bir heykel gibi ebedi kalmalısan.
[Atsız: 2023, s. 90]

Hüseyn Nihal Atsızın yaradıçılığında türkçülük anlayışının nə qədər sərt və radikal olmasına baxmayaraq türk millətçiliyinin formalaşmasında təsiri danılmazdır və mühüm rol oynamışdır. Atsız yaradıcılığında türkçülük həm ideoloji, həm də bədii səviyyədə geniş şəkildə işlənmişdir. O, türkçülüyü tarixi yaddaş, milli qürur və gələcəyə yönəlmiş ideya kimi təqdim edərək, bu sahədə özünəməxsus və güclü iz buraxmışdır.

Türkçülük ideyası XX əsrdə həm Türkiyə, həm də Azərbaycan ədəbiyyatında milli oyanışın əsas istiqamətlərindən biri olmuşdur. Bu ideya müxtəlif müəlliflərdə fərqli formalarda təzahür etmişdir. Məsələn, Hüseyn Nihal Atsız türkçülüyü daha sərt və ideoloji formada təqdim edir: Onun əsərlərinədə Türkçülük irqi-milli üstünlük ideyası ilə bağlıdır. O, "Türkçülük" adlı məqaləsində yazır: "Türkçülük, böyük Türk yurdunda Türk soyunun qeyd şərtsiz hakimiyyəti və istiqlalı ilə Türklüyün hər baxımdan bütün millətlərdən irəlidə və üstün olması ideyasıdır. Bu ideya keçmişdə bir neçə dəfə gerçəkləşdi. Böyük Türkçülük ideyası və inancı ilə yetişən gənclik sayəsində sabah yenidən gerçək olacaqdır." [Atsız: 2018, s.12]

Hüseyn Nihal Atsızın əsərlərində Türk tarixinin qəhrəmanlıq dövrləri idealizə olunur, Turançılıq - bütün türklərin birliyi əsas məqsəd kimi göstərilir, əsərlərində romantik-mifoloji elementlər çoxdur. "Bozqurdların ölümü", "Bozqurdlar dirilir" romanları Göytürklərin tarixini, "Dəli Qurd" romanı Sultan Beyazidin dövrünü bədii təsvir vasitəsilə əks etdirərək qəhrəmanlıq səlnaməsi yaratmışdır. "Ruh Adam" romanı isə daha çox romantik-mifoloji, fövqəladə hadisələrin kontekstində yazılmış oxucuya güclü psixoloji təsir edən fantastik və tarixi elementləri özündə birləşdirən bir əsərdir. Hüseyn Nihal Atsız görə Türkçülük daha çox ideoloji və siyasi konsepsiyadır.

Delinse yer, çökse gök, yansa, kül olsa dört yan
Yüce dileye doğru yine yürürüz yayan.
Yıldırımdan, tipiden, kasırgadan yılmayan,
Ölümlerle eğlenen tunç yürekli Türkleriz...
[Atsız: 2023, s.80].

XX əsr Azərbaycan ədəbiyyatında Hüseyn Nihal Atsızın yaradıcılığında olduğu kimi Türkçülük ideologiyası Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Fikrət Sadıq və digər yazıçı və şairlərin yaradıcılığında yalnız ideya istiqaməti kimi deyil, həm də bədii-estetik təfəkkürün mühüm komponenti qismində çıxış edərək müxtəlif poetik formalar, janr xüsusiyyətləri və ifadə vasitələri çərçivəsində çoxşaxəli şəkildə təcəssüm olunmuşdur. XX əsr Azərbaycan ədəbiyyatında türkçülük ideyası daha çox milli azadlıq, kimlik və tarixi yaddaş kontekstində inkişaf etmişdir. Hüseyn Nihal Atsız üçün türkçülük daha çox "qan, soy və tarix" üzərində qurulan etnik-millət konsepsiyasıdırsa Bəxtiyar Vahabzadə və Xəlil Rzanın şeirlərində türk birliyi mənəvi və siyasi azadlıq ideyası ilə birləşir.

Bəxtiyar Vahabzadənin yaradıcılığında Türkçülük milli kimlik və azadlıq ideyası ilə bağlıdır, sovet dövründə milli şüurun qorunmasına xidmət etmişdir. Bu ideya onun "Gülüstan" poemasında milli faciə və Azərbaycan xalqının parçalanması, Arazın o tayı, bu tayı ilə bağlı şəkildə təqdim olunur:

Neçə vaxt səngərdə hey ulaşdılar,
Gülüstan kəndində sövdalaşdılar.
Bir ölkə ikiyə
Ayrılsın deyə!...
Göy də buludlamış deyirlər o gün,
Çölləri, düzləri buludlar sarmış.
O, göy gurultusu Oğuz xaqanın
Ruhuymuş, hönkürüb fəryad qoparmış.
Dəmir çəpərləri eşqim, diləyim
Tarixim, ənənəm üstə qoydular.
Yarıya bölündü canım, ürəyim,
Yarıya bölündü Arazda sular.
[Vahabzadə, 1959].

Poemada Araz çayı sadəcə coğrafi sərhəd deyil, bir millətin ayrılıq xəttidir. Şair Arazın hər iki sahilində yaşayanların eyni dilə, eyni mədəniyyətə, eyni tarixi yaddaşa malik olduğunu göstərir. Bu yanaşma türkçülüyün əsas prinsiplərindən biri olan "dildə, fikirdə, işdə birlik" ideyasına uyğundur, bu ideya isə İsmayıl bəy Qaspıralı ilə bağlıdır. Poema yalnız keçmişin təsviri deyil, həm də Hüseyn Nihal Atsız şeirlərində olduğu kimi çağırış xarakteri daşıyır. Hüseyn Nihal Atsız gənclərə üzünü tutaraq yazır:

Ölümlerden sakınma, meyus olmaktan utan!
Bir kere düşün nedir seni hayatda tutan?
Mefkuresinden başqa her varlığı unutan
Kahramanlar kibi sen, ebedi kalmalısan
[Atsız: 2023, s. 91].

Bəxtiyar Vahabzadə isə xalqı tarixi yaddaşını unutmağa qoymamaq, milli şüuru oyatmaq, bölünmüşlüyə qarşı mənəvi müqavimət göstərmək kimi hissləri aşılamağa çalışaraq poetik dillə belə çağırışlar edir:

Qoy qalxsın ayağa ruhu Tomrisin,
Babəkin qılıncı parlasın yenə,
Onlar bu şərtlərə sözünü desin,
Zənciri kim vurdu şir biləyinə?

Hanı bu ellərin mərd oğulları,
Açın bərələri, açın yolları,
Bəs hanı bu əsrin öz Koroğlusu
Qılınc Koroğlusu, söz Koroğlusu?
[Vahabzadə, 1959].

Bu, türkçülük ideologiyasında mühüm yer tutan milli dirçəliş və özünüdərk anlayışları ilə üst-üstə düşür

Dilin milli varlığın əsası kimi qiymətləndirilməsi Bəxtiyar Vahabzadə yaradıcılığında dil faktoruna xüsusi önəm verildiyini göstərir, şair dilin millətin varlığı üçün əhəmiyyətli, milli kimliyin dayağı, dilin parçalanmasının millətin zəifləməsinə səbəb olduğunu poetik dillə nəsillərə çatdırır. Bəxtiyar Vahabzadənin bu fikirləri Hüseyn Nihal Atsızın dil haqqında yazdığı "dil bir millərin ən dəyərli malıdır. (...) Dilini itirən millət varlığını və kimliyini itirmiş olur" fikri ilə səsləşir. [Atsız: 2022, s.208]

Bəxtiyar Vahabzadənin "Ana dili", Xəlil Rzanın milli istiqlal şeirləri və Sabir Rüstəmxanlının publisistikası göstərir ki, dil yalnız ünsiyyət vasitəsi deyil, milli varlığın ontoloji əsaslarından biridir. Bu baxımdan Bəxtiyar Vahabzadənın "Ana dili" şeiri onun yaradıcılığında mühüm yer tutur, bu şeir ana dilinə sevgi, milli kimlik və vətənpərvərlik mövzusuna həsr olunmuşdur. Şair şeirdə ana dilini xalqın varlığının, tarixinin və mənəvi dəyərlərinin əsas daşıyıcısı kimi təqdim edir. Şeirin əsas ideyası budur ki, dilini qoruyan xalq öz milli kimliyini də qoruyur. Bəxtiyar Vahabzadə ana dili xalqın ruhu və mənəviyyatı hesab edır. Şair dilin unudulmasını millətin zəifləməsi və milli dəyərlərin itməsi kimi qiymətləndirir. "Ana dili" şeiri oxucuda doğma dilə sevgi və onu qorumaq məsuliyyəti hissini yaradır.

Dil açanda ilk dəfə "ana" söyləyirik biz,
"Ana dili" adlanır bizim ilk dərsliyimiz.
İlk mahnımız laylanı anamız öz südüylə,
İçirir ruhumuza bu dildə gilə-gilə.
Bu dil,- bizim ruhumuz, eşqimiz, canımızdır,
Bu dil,- bir-birimizlə əbədi peymanımızdır.
[Vahabzadə: 2004, s. 8]

Türkçülük baxımından istər Bəxtiyar Vahabzadənin, istərsə də Hüseyn Nihal Atsızın bu fikirləri bütün türk xalqlarının ortaq dil və mədəni köklər ətrafında birləşməsi ideyasını gücləndirir və türkçülüyun mədəni əsasını təşkil edir. Şair türk birliyi və milli bütövlük ideyasını açıq şəkildə ifadə edir, türk kimliyini qorumağı və gələcək nəsillərə ötürməyi vacib vəzifə kimi təqdim edir.

Bir ananın iki oğlu,
Bir amalın iki qolu.
O da ulu, bu da ulu,
Azərbaycan - Türkiyə.

Bir millətik. İki dövlət,
Eyni arzu, eyni niyyət
Hər ikisi cümhuriyyət,
Azərbaycan – Türkiyə.
[Vahabzadə: 2004, s. 319]

Bəxtiyar Vahabzadə yaradıcılığında türkçülük ideyası milli kimlik, xalqın birliyi, dil və

vətən sevgisi vasitəsilə ifadə olunur, torpaq, tarix və millət bir bütöv kimi təqdim olunur.

XX əsr Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrindən biri olan Xəlil Rza Ulutürkun yaradıcılığı da milli ruhun, azadlıq ideyalarının və türkçülük düşüncəsinin poetik ifadəsində mühüm rol oynamışdır. Onun yaradıcılığı təkcə estetik dəyər daşımır, eyni zamanda ictimai-siyasi və ideoloji məzmunu ilə seçilir. Şairin əsərlərində türk dünyasına bağlılıq, milli kimlik və tarixi yaddaş əsas istiqamətlərdən biridir. Xəlil Rza Ulutürkün yaradıcılığında türkçülük ideyası tarixi köklərə və milli yaddaşa əsaslanır. Bu ideya, xüsusilə XX əsrin ikinci yarısında Sovet ideoloji çərçivələri daxilində milli özünüdərkin ifadəsi kimi ortaya çıxır, şairin poeziyasında türk kimliyi mədəni və mənəvi bütövlük kimi təqdim olunur. Onun türkçülük anlayışı Ziya Gökalp, Hüseyn Nihal Atsız kimi ideoloqların irəli sürdüyü prinsiplərlə səsləşir: dil birliyi, mədəni yaxınlıq və tarixi ortaq yaddaş. Lakin Ulutürk bu ideyaları daha çox poetik və emosional müstəvidə ifadə edir. O, Azərbaycan türkcəsini milli kimliyin əsas atributu kimi qiymətləndirir və dilin qorunmasını Hüseyn Nihal Atsızın yaradıcılığında olduğu kimi türkçülüyün əsas şərtlərindən biri hesab edir. Hüseyn Nihal Atsız, hətta türk dilinin saflığını saxlamaq, kənar təsirlərdən qorumaq üçün dil məsələləri konsepsiyasında nələrin edilməli olduğu barədə düşüncələrini "Dilimizi Türkləşdirmək Üçün Əməli Yollar" məqaləsində əks etdirmişdir [Atsız: 2016].

Bu yanaşma Xəlil Rza Ulutürkün şeirlərində də tez-tez rast gəlinir, dilə sevgi və dil uğrunda mübarizə motivləri şairin poeziasında mühüm yer tutur. Bu baxımdan onun "Azərbaycan Türkcəsi" şeiri cox əhəmiyyətlidir.

Ağqanadlı gündüzü,
Çılçıraqban gecəsi,
Azərbaycan türkcəsi !
Alnız sənin uğrunda
Atıldım yanar oda.
əni anamdan əvvəl
Sən doğmusan dünyada.

Dilimləyib bağrımı, dilim-dilim mənimsə
Bu dünyanın sərvəti, fəxr edirəm, mənimsən!
Anamın halal südü, atamın öyüdüylə
Varlığıma sinmisən.
Ansam bircə hecanı,
Dönüb cavanlaşaram.
Səslərin ən incəsi....
Azərbaycan türkcəsi!
[Ulutürk, 2012 s.324-325].

Xəlil Rza Ulutürkün türkçülük konsepsiyası azadlıq ideyası ilə sıx bağlıdır. Onun poeziyasında milli azadlıq milli ruhun azadlığıdır. Bu baxımdan onun yaradıcılığı Azərbaycanın müstəqilliyinin bərpası dövründə xüsusi aktuallıq qazanmışdır.

Azadlığı istəmirəm
Zərrə-zərrə, qram-qram
Qolumdakı zəncirləri qıram gərək
Qıram! Qıram!
Azadlığı istəmirəm
Bir həb kimi, dərman kimi
İstəyirəm səma kimi,

Günəş kimi,
Cahan kimi:
Çəkil, çəkil ey qəsbkar:
Mən bu yurdun gur səsiyəm:
Gərək deyil sısqa bulaq,
Mən ümmanlar təşnəsiyəm.
Biz Türküstan elləriyik,
Biz Türküstan elləriyik,
Qeyrət, qüdrət selləriyik.
[Ulutürk: 2012, s. 5].

Əlizadə Əsgərli "Xəlil Rza Ulutürkün Poetikası" kitabında yazır: "Xəlil Rza Ulutürk ədəbiyyatda türkçülük, vətənçilik, azərbaycançılıq və istiqlalçılıq məfkurəsinin davamçısıdır. Onun poeziyası milli ideallarla aşılanmış xalq məfkurəsi və taleyini daha ciddi əks etdirmişdir" [Əsgərli: 2012. s.5].

Xəlil Rza Ulutürk dünyagörüşündə və yaradıcılığında türkçülük milli kimliyin, milli özünüdərkin qaynağıdır. Bu baxımdan aşağıdakı misraların Xəlil Rza Ulutürkün nə qədər türkçü olduğunu mübaliğəsiz şəkildə əks etdirdiyini görürürk.

Biz Türkləriz....Vətənimiz - başdan-başa
Yer kürəsi.
Bayrağımız al günəşdir, çadırımız göy qübbəsi.
[Ulutürk, 2005. s.3].

Yaxud şair "Türk - Azər " şeirində özünün türk olduğunu sovet rejiminin sərt təsirindən çəkinməyərək belə ifadə edir:

Azərbaycan türküyəm
Bəlkə də bu çümlə heç çıxmayıb ürəyindən,
Səslənməyib dilində,
Varlığında bəslənib, bəslənməyib dilində.
Desən də, deməsən də pasportumdur bu çümlə.
Oddan, sudan keçərsən bu cümlənin gücüylə.
[Ulutürk, 2012. s.176].

XX əsrin sonu - XXI əsrin əvvəllərində Azərbaycan ədəbiyyatında milli-mənəvi dəyərlərin bədii ifadəsi xüsusi aktuallıq qazanmışdır. Bu kontekstdə Zəlimxan Yaqub yaradıcılığı da türkçülük ideyasının poetik təcəssümü baxımından diqqəti cəlb edir. Onun şeirlərində türk kimliyi, ortaq tarix, dil və mədəniyyət anlayışları mühüm yer tutur və milli özünüdərk prosesinə xidmət edir. Şair xalq dilinə yaxın, aydın və emosional ifadə vasitələrindən istifadə edir. Bu, onun şeirlərinin geniş oxucu kütləsi tərəfindən asan qavranılmasını təmin edir. Eyni zamanda, onun yaradıcılığında folklor elementləri, dastan ənənəsi, klassik türk poeziyasına istinadlar aydın şəkildə müşahidə olunur. Bu xüsusiyyətlər türk dünyasının ortaq ədəbi yaddaşına bağlılığı göstərir. Şairin əsərlərində Azərbaycan yalnız coğrafi məkan kimi deyil, daha geniş şəkildə türk dünyasının ayrılmaz hissəsi kimi təqdim edilir. O, müxtəlif türk xalqlarını vahid mədəni məkan daxilində təsəvvür edir və bu ideyanı poetik obrazlar vasitəsilə gücləndirir. Türk dünyasının bütövlüyü ideyası şairin şeirlərində tarixi yaddaşın bərpası, ortaq dəyərlərin vurğulanması, gələcək birlik kimi istiqamətlərdə özünü göstərir. Onun "Dünya türkün olacaq" şeiri sadə, aydın və ritmik dillə yazılmış şifahi xalq ədəbiyyatının nümunəsi hesab etmək olar, bu şeir coşqulu və çağırış xarakterli üslub daşıyır, milli ideologiyanın poetik ifadəsi, türk birliyi ideyasının bədii manifestidir.

Şəhid verin, qurban verin, can verin,
Cansızlara şah damardan qan verin,
Gəmi kimi sahillərə yan verin,
Müjdəçilər düzüm-düzüm olacaq,
Bu gün-sabah dünya bizim olacaq.

Qovuşacaq bölünənlər, bölgələr,
Nurlanacaq qaranlıqlar, kölgələr,
Diriləcək Oğuzxanlar, Bilgələr,
Türkə səcdə, Türkə təzim olacaq,
Bu gün-sabah dünya bizim olacaq.
[Yaqub: 2020].

"Ana dilim" şeiri onun yaradıcılığında milli kimlik, dil sevgisi və mənəvi bağlılıq ideyalarının ən dolğun ifadələrindən biridir. Şeirin mərkəzində ana dilinə sevgi və onun milli varlığın əsas sütunu olması ideyası dayanır. Şair ana dilini xalqın tarixinin daşıyıcısı, milli yaddaşın qoruyucusu, mənəvi kimliyin ayrılmaz hissəsi kimi təqdim edir. Burada dil milli mövcudluğun simvolu kimi çıxış edir. Şeirdə dilə müraciət forması şeirin emosional intensivliyini artırır, oxucunu birbaşa ideoloji təsir altında saxlayr. Şeirin dərinliyində bir fəlsəfi qat da mövcuddur, dil və kimlik arasında ayrılmaz əlaqə, dilin itirilməsinin milli varlığın zəifləməsi kimi anlaşılması və mənəvi dəyərlərin qorunmasının vacibliyi ideyaları öz əksini tapır.

Dərdli anaların bağrından qopan,
Neçə yol dağlanıb, əzilən dilim.
Ruhuma işləyən, qanıma hopan
Sazın pərdəsindən süzülən dilim!

Buluddan sıyrılıb, Günəşdən çıxıb,
Göylərin taxtından enib gəlmisən!
Ölməz dahilərin əlini sıxıb,
Tanrı qüdrətinə dönüb gəlmisən!
[Yaqub: 2006, s.123].

Zəlimxan Yaqubun şeirlərində Türk anlayışı geniş semantik məna daşıyır: ortaq keçmişin simvolu, mənəvi güc və iradə ifadəsi, milli birlik ideyası. Bu ideyalar onun "Türk oğlu", "Türkün bayrağı", "Türk dünyası", "Türkün səsi", "Türkəm" və s. şeirlərində özünü qabarıq şəkildə göstərir.

Şairin "Vətən" şeirinə nəzər salsaq görərik ki, vətən anlayışı ali dəyər kimi təqdim olunur; vətən sevgisi insanın daxili aləmini sarsıdır, emosional yüksəliş yaradır. Şeir romantik-patriotik ruhu, emosional ifadə tərzi və bədii metaforaları ilə türkçülük və milli birlik ideyasını əks etdirir.

Nədir bu sözdəki ilahi qüdrət?
Dizlərə taqətdi, qollara qüvvət.
Elə ki, birləşdi həsrətlə qüdrət,
Ürək parçalandı, can "Vətən",- dedi
[Yaqub: 2006, s.64].

Hüseyn Nihal Atsız və Zəlimxan Yaqub türkçülük ideyasını fərqli üslub və baxışlarla ifadə etsələr də, hər ikisinin yaradıcılığında əsas məqsəd türk kimliyinin, dilinin və milli yaddaşının yaşadılması olmuşdur. Atsız türkçülüyü daha çox ideoloji və siyasi müstəvidə təqdim etdiyi halda, Zəlimxan Yaqub isə onu mənəvi-mədəni birlik və qardaşlıq prizmasından ifadə etmişdir.

Türkçülük XIX əsrin sonu – XX əsrin əvvəllərində formalaşmış, dil, mədəniyyət və etnik birliyə əsaslanan ideoloji istiqamətdir. Bu ideya Əli bəy Hüseynzadə, Ziya Gökalp, Hüseyn Nihal Atsız kimi mütəfəkkirlərin yaradıcılığında öz əksini geniş şəkildə tapmışdır. Sabir Rüstəmxanlı isə bu ənənəni davam etdirərək onu müasir ictimai-siyasi kontekstlə əlaqələndirmişdir. Sabir Rüstəmxanlının poeziyasında türkçülük tarixi yaddaş və ortaq keçmiş, dil və mədəni birlik, vətən və milli kimlik, azadlıq və istiqlal ideyası istiqamətində təzahür edir.

Şairin əsərlərində türk xalqlarının ortaq tarixi keçmişinə müraciət mühüm yer tutur. O, qədim türk dövlətlərinin qüdrətini və mədəni irsini xatırladaraq oxucuda milli qürur hissi formalaşdırır. Sabir Rüstəmxanlı türk dillərinin yaxınlığını və ortaq mədəni dəyərləri ön plana çəkir. Onun poeziyasında dil milli varlığın əsas göstəricisidir. Şairin fikrincə, dilin qorunması türk dünyasının birliyinin əsas şərtidir.

Şairin yaradıcılığında vətən anlayışı geniş semantik çərçivədə təqdim olunur. Azərbaycan yalnız coğrafi məkan kimi deyil, bütöv türk dünyasının bir parçası kimi dərk edilir. Bu isə türkçülük ideyasının poetik interpretasiyasıdır. Onun poeziyasında istiqlal uğrunda mübarizə ümumtürk miqyasında təqdim olunur və bu, ideyanın siyasi aspektini gücləndirir. O, həm tarixi yaddaşı, həm də milli-mənəvi birliyi poetik dillə təqdim edərək türk dünyasının bütövlüyünü vurğulayır. Onun Türkçülük ideyasını əks etdirən "Vətən", "Azərbaycan", "Göy Tanrı", "Türkün səsi" şeirləri bu qəbildəndir. Torpağa bağlılıq Sabir Rüstəmxanlı üçün milli dəyərdir.

Bir əlçim buluddu,
Bİr omür umuddu,
Bir içim sudu.
Yandıqca odlanan ocaqdı,
Daddıqca dadlanan arzudu.
Bir dərə bahar leysanıdı,
21 Azərin qanıdı,
Cavad xanın qətl yeridi,
Sabirin "Fəxriyyə" şeiridi,
Dağları dumandan itən-
Vətən....Vətən!
[Rüstəmxanlı: 2004. s.11]

Adlarını çəkdiyimiz şairlərin yaradıcılığında olduğu kimi Sabir Rüstəmxanlı yaradıcılığında da ana dili mövzusu aktualdır və o, ana dilinə olan sevgisini vətən sevgisi ilə birləşdirir. Şair "Sağ ol, Ana Dilim" şeirində milli varlığın əsas dayağının coğrafiya deyil, dil olduğunu, torpağın siyasi proseslərlə bölünə bildiyini, lakin dilin xalqın identikliyini qoruyan bölünməz vətən funksiyasını daşıdığını poetik dillə bildirir.

Döyüşdə qılınctək sıyrıldı qından,
Başımın üstündə bayrağım oldu,
Torpağım ikiyə bölünən zaman
Bu dil bölünməyən torpağım oldu.
[Rüstəmxanlı: 2004 s. 85]

Bu misralarda şair üç əsas simvol sistemi yaradır, qılınc mübarizə və azadlıq, bayraq dövlət və milli kimlik, dil isə vətənin simvoludur. Burada dil, torpağın yerinə keçən alternativ vətən kimi təqdim olunur, fiziki parçalanma (torpağın bölünməsi) ilə mənəvi bütövlük (dilin birliyi) arasında qarşıdurma yaranır. Bu qarşıdurmada qalib olan dildir, çünki dil millətin mənəvi ruhudur.

Ömrüm qırılmazdı, yol qırılsa da,
Səninlə həmişə mən üzüağam,
Bədənim torpağa tapşırılsa da,
Ruhumu mən sənə tapşıracağam.
[Rüstəmxanlı: 2004. s. 86]

Yaxud Sabir Rüstəmxanlının "Millətəm" şeirində millət obrazı lirik subyekt olaraq həm tarixi, həm də siyasi-mənəvi yük daşıyan bir varlıq kimi təqdim olunur, milli özünüdərk və milli müqavimət hissləri ittiham, yük, dözümlü-

lük və davamlılıq kimi psixoloji dinamikanın köməyilə emosional şəkildə ifadə olunur.

Çəkil, torpağımdan, ey yağı düşmən,
Mən şeytan ümidin üzən millətəm.
Dünyanı üstümə qaldırdın yetər,
Dünyanın dərdinə dözən millətəm!
[Rüstəmxanlı: 2004.s. 332]

Sabir Rüstəmxanlı bir çox şeirlərində "qan yaddaşı" anlayışına toxunur. Bu, türk xalqlarının ortaq genetik və mədəni yaddaşını simvolizə edir və türkçülük ideyasının əsas sütunlarından biridir Müəllifin şeirləri göstərir ki, türkçülük yalnız ideoloji konsepsiya deyil, həm də bədii-estetik dəyərə malik ədəbi istiqamətdir. Bu baxımdan, Sabir Rüstəmxanlı yaradıcılığı müasir Azərbaycan ədəbiyyatında türkçülük ideyasının inkişafında mühüm mərhələ kimi qiymətləndirilə bilər.

XX əsr Azərbaycan poeziyasının nümayəndələrindən biri də Fikrət Sadıqdir. Onun yaradıcılığında türkçülük mövzusu birbaşa ideoloji xətt kimi əksini tapmasa da, daha çox mədəni-mənəvi qat və poetik kimlik hissi kimi özünü göstərir. Amma türkçülük anlayışını daha geniş: dil, yaddaş, mədəni kök, milli poetik düşüncə və türkcənin ruhu kimi götürsək, onda onun poeziyasında bu izləri görmək mümkündür. Fikrət Sadıq şeirlərində kökə, soya bağlılıq, epos nümunələri öz əksini tapmışdır. Onun "Ümüd məndən üz döndərsə" şeirində bu motivlərə rast gəlirik.

Ümid məndən üz döndərsə,
Pəncərəmi döysə qorxu,
Bir əlimdən qopuz tutar,
Bir əlimdən Dədə Qorqud
Yaxud başqa bir misrasında;
Dar macalda dara düşsəm,
Bilinməzsə yalan-doğru,
Tez göndərər Xan Eyvazı
Harayıma Qoç Koroğlu
[Sadıq: 1989 səh.4]

Bu şeir çox sadə dildə, heca vəznində yazılmış bir şeirdir. Fikrət Sadıq dastan qəhrəmanlarının adını çəkməklə kökə bağlılığı xalqın danışıq dilində ritmik bir tərzdə ifadə edilmişdir. Bu xüsusiyyətlər şeirin oxucu tərəfindən asan qavranılmasına və yadda qalmasına xidmət edir. "Azərbaycan doğma yurdum, Anam" şeirində bədii təsvir vasitəsi ilə vətəni qocaman, yaşıl ağaca, yad sərhədlərə alınmış vətən torpaqlarını şaxələnmiş budağa bənzədən Fikrət Sadıq Arazın o tayındakı Təbriz, Ərk Qalası, Savalanı, bu tayda Qarabağ, Mil, Muğan, Şirvanı doğma yurd, Ana, özünü isə körpəcə bir yarpaq adlandırır. Şeirdə bu torpaqlar "bir günəşə boylanır" deməklə Günəş və Bütöv Azərbaycan arasında təşbeh yaradır.

Sən müdrik qoca,
Sən tunc biləkli cavan.
Bənzəyirsən qocaman
Nəhəng, yaşıl ağaca
Bir budağın şaxə-şaxə
Sərilib Arazdan o taya
Orda Təbriz, Ərk Qalası, Savalan.
Bir budağın Qarabağ,
Bir budağın Naxçıvan.
Bir günəşə boylanır
Bakı, Şirvan, Mil, Muğan.
Azərbaycan, doğma yurdum, anam!
Mən də sənin
Körpəcə bir yarpağınam.
[Sadıq: 1989, s..6]

Fikrət Sadığın bu şeirdə təsvir etdiyi Azərbaycanın parçalanması timsalında bütün Türk torpaqlarının yad sərhədlər daxilində bölünməsini anlamaq çətin deyildir. "Əlifbanı biməyən nənəmin əlyazması" şeiri Fikrət Sadıq poeziyasında millilik və mədəni kimlik kontekstində yazılmış şeirləri içərisində maraq doğuran bir poeziya nümunəsidir. Şeirin əvvəli və son hissəsi 7- lik ölçüdə yazılmış bayatılardan ibarətdir. Bu ölçü, adətən bayatılarda geniş istifadə olunur və şeirə ritmik quruluş verir.

Xalçaya bax, xalçaya!
Bənzəyir axar çaya
Sahilləri bələnib
Çiçək açmış alçaya.
Xalçanı buta bəzər,
Buta buluda bənzər.
Bu yandan qırqovula,
O yandan oda bənzər
[Sadıq: 1989, s. 7]

Bu şeirdə xalça həm mədəni, həm də mənəvi mirasdır, nəinki Azərbaycan xalqının, hətta bütün Türk xalqlarının qədim sənəti olan xalçalıq və Türk xalçalarının adı XIII əsr, bəlkə də ondan əvvəllərə dayanır. Bu şeirdə Fikrət Sadığın seçdiyi metaforalar sadə görünsə də dərin qatlara malikdir, sanki xalça xəritədir və onun üzərində tarix poetik dillə ilmələrə çevrilmişdir. Şeirin dil-üslub cəhətdən aydınlığı onu məzmun cəhətdən maraqlı edir.

Xalça – qədim xəritə, hikmətlə dolu şeir,
Burda zərrəcə nöqtə bir kitablıq söz deyir/
Hər ilməsi bir hərf, hər düyünü kəlmədi,
Gözümü bir anlığa yana çəkə bilmədim
[Sadıq: 1989, s. 7- 8]

Bu şeirdə 14 hecalı misraların qoşa qafiyəsində Babək, Xətai, Dədə Qorqud qopuzu, Naxçıvan naxışlarında Əcəmi yadigarı, Nüşabədən söz açarkən Bərdənin adını çəkməsi, vətənin hər qarışına olan sevgisini şair poetik dillə xalça metaforası üzərində qurmuşdur.

Bu Babəkdən nişanə, bu Xətaidən qalıb,
Bu rəngdə, bu nəqşədə o vaxtkı Vətən qalıb.

Kürlə haşıyələnmiş Günəş parçasıdır bu!
Dədə Qorqud qopuzlu Qazax xalçasıdır bu!

Naxçıvan naxışları Əcəmidən yadigar
Bu xəzəlli xətt – payız, bu yarpaqlı xətt - bahar.

Nüşabədən söz açır Bərdədən gələn xalça,
Tovuz quşudur sanki, az qalır qanad açа.
[Sadiq: 1989 .s.6]

Hüseyn Nihal Atsız yaradıcılığındakı sərt ideoloji ton Fikrət Sadıq poetikasında yoxdur, belə ki, onun poetikasında türkçülük ontestində lirizm və özünüdərk daha sakit və fəlsəfi şəkildə ifadə olunur. Fikrət Sadıq ideoloji radikalizmdən uzaq olub daha çox: poetik milli düşüncə, humanist və mədəni türkçülük xəttinə daha yaxındır.

Fikrət Sadığın şeirlərində Azərbaycan türkcəsinin təbii axarı, xalq dili və folklor intonasiyası güclüdür, bu, türk poetik ənənəsinə bağlılığın göstəricisidir. Onun şeirlərində kimlik hissi, insanın kökə, torpağa və mənəvi mənşəyə bağlılığı önə çıxır ki, bu da dolayı şəkildə türk mədəni identikliyinə bağlılıq yaradır. Fikrət Sadıqda açıq ideoloji türkçülükdən çox, "mədəni türkçülük" və "poetik milli kimlik" daha güclüdür. O, ideologiyanı deyil, poetik düşüncədə milli ruhu ifadə edən şairlərdəndir.

## Nəticə / *Conclusion*

Nəticə olaraq demək olar ki, XX əsrdə türkçülük ideologiyasının güclənməsi istər Türkiyə, istərsə də Azərbaycan ədəbiyyatına öz təsirini göstərmişdir. Bu təsir nəticəsində tarixi yaddaş, milli kimlik, milli şüurun formalaşmasında böyük rol oynayan əsərlər meydana gəlmişdir. Hüseyn Nihal Atsız, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Sabir Rüstəmxanlı, Zəlimxan Yabub, Fikrət Sadıq kimi mütəfəkkirlər bu əsərlərlə zəngin yaradıcılığa malikdirlər. Məqalədə incələnən poeziya nümunələrindən də göründüyü kimi tarixi kökə bağlılıq, vətənpərvərlik, azadlıq və istiqlal uğrunda mübarizə idealları bu müəlliflərin ədəbi fəaliyyətlərinin əsas inkişaf xəttini təşkil edir. Eyni zamanda, türk kimliyinin tarixi-mədəni bütövlük kimi təqdimatı, ortaq türk keçmişi, milli yaddaşın dirçəldilməsi, türk dilinin müqəddəs dəyər kimi qorunması, dilin milli varlığın əsası kimi qiymətləndirilməsi bu mütəfəkkirlərin əsərlərində ortaq motivləridir. Lakin hər birinin türkçülük ideologiyasının formalaşmasında və təbliğində özünə məxsus yeri və xidmətləri olmuşdur. Hüseyn Nihal Atsızın türkçülüyü sərt və radikal çalarlar daşıyaraq "qan birliyi" və "soy təmizliyi" anlayışlarını ön plana çıxarırsa Bəxtiyar Vahabzadənin türkçülüyü humanist, mənəvi bütövlüyə əsaslanan türkçülükdür, Azərbaycançılıq və türkçülüyün sintezi, türk dünyasının ortaq mədəniyyət ailəsi kimi təqdim olunması xüsusu yer tutur. Xəlil Rza Ulutürk isə istiqlalçı və müqavimətçi türkçüdür. Onun poeziyasında türkçülük azadlıq fəlsəfəsidir. Sabir Rüstəmxanlı türkçülüyü siyasi şüur və dövlətçilik kontekstində təqdim edir, Güney Azərbaycan problemi, parçalanmış türk coğrafiyası, milli istiqlal ideo-

logiyası mərkəzi mövqedədir. Zəlimxan Yaqub yaradıcılığı aşıq düşüncəsi, folklor yaddaşından qidalanır, onun üçün türk dünyası mənəvi qardaşlıq məkanı, ozan-aşıq ənənəsi milli birliyin simvoludur. Fikrət Sadıq yaradıçılığı dil sevgisi, torpağa bağlılıq, milli tarixə ehtiram hissi ilə səciyyələnir.

**Ədəbiyyat / *References***


1. Atsız H.N. (2023). *Yolların Sonu*. İstanbul: Ötüken nəşriyyatı, 155 s.
2. Atsız H.N. (2022). *Türk Edebiyatı Tarihi*. İstanbul: Ötüken nəşriyyatı, 219 s.
3. Atsız H.N. (2018). *Makaleler III*. İstanbul: İrfan nəşriyyatı, 510 s.
4. Atsız H.N. (2020). *Bozkurtlar Ölür, Dirilir*. III nəşr. Bakı: Xan nəşriyyatı, 526 s.
5. Atsız H.N. “Dilimizi Türkleştirmek İçin Amelî Yollar”. https://huseyinnihalatsiz.com/makale/dilimizi-turklestirmek-icin-ameli-yollar/ [istinad tarixi: 05.05.2016].
6. Əsgərli Ə. (2012). *Xəlil Rza Ulutürkün poetikası*. Bakı: Aspoliqraf nəşriyyatı, 496 s.
7. Ulutürk X.R. (2005). *Turan çələngi*. Bakı: QAPP-POLİQRAF Korporasiyası, 873 s.
8. Ulutürk X.R. (2012). *Seçilmiş əsərləri. Şeir və poemalar*. Bakı: Təhsil nəşriyyatı, 560 s.
9. Quliyev E. (2014). *Türk xalqları ədəbiyyatı*. Bakı: APOCTOROFF, 612 s.
10. Rüstəmxanlı S. (2004). *Seçilmiş əsərləri*. Bakı: Şərq-Qərb nəşriyyatı, 344 s.
11. Sadıq F. (1989). *Dünya öz işindədir*. Bakı: Yazıçı nəşriyyatı, 184 s.
12. Vahabzadə B. (2004). *Seçilmiş əsərləri* (iki cilddə). I cild. Bakı: Öndər nəşriyyatı, 328 s.
13. Vahabzadə B. “Gülüstan” poeması. https://manera.az/index.php?newsid=7005 [istinad tarixi: 16.08.2018].
14. Yaqub Z. (2006). *Seçilmiş əsərləri* (iki cilddə). II cild. Bakı: Şərq-Qərb nəşriyyatı, 288 s.